**UOT 355\ 359**

**Xuraman Hüseynova,**
***AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsi,***
***kiçik elmi işçi***
***xuramanhuseyn0107@gmail.com***
***ORCID iD: 0009-0000-6287-3753***
**https://doi.org/10.59849/2709-5096.2024.1.32**

# ERMƏNİSTAN ORDUSUNDA VƏZİYYƏT

**Annotasiya**

*Məqalədə SSRİ-nin süqutundan sonra Ermənistanda ordu və digər silahlı birləşmələrin yaranması, işğalçılıq siyasətinin ordu quruculuğu prosesinə təsirləri, silah və canlı qüvvə təminatı, hərbi xərclər araşdırılmışdır. İqtisadi amillərin, sosial böhranın orduya təsirləri tədqiq edilmişdir. Məqsəd İkinci Qarabağ müharibəsindən əvvəl və sonra ordudakı vəziyyətin müqayisəli təhlili, bu sahədə aparılan işlərin səmərəlilik dərəcəsinin və nəticələrinin tədqiq edilməsidir. Həmçinin orduda hərbi heyətin psixoloji durumu, hərb sahəsinə gənclərin marağı və dövlət tərəfindən qəbul edilən qərarlar, görülən tədbirlər analiz edilmişdir. İlk dəfə olaraq məqalədə Ermənistanın silah təchizatını şaxələndirmək və təchizatçı ölkələrdən alınan silahların taktiki-texniki xüsusiyyətlərinin öyrənilməsinə cəhd göstərilmişdir. Məqalənin yazılması zamanı kontent analiz və müqayisəli təhlil aparılıb, erməni kütləvi informasiya vasitələrindəki materiallar toplanılıb, sistemləşdirilib və təhlil edilimişdir.*

***Açar sözlər:*** *Ermənistan, ordu, silah, hərbi xərclər, psixoloji vəziyyət, təminat*

**Xuraman Huseynova**

## THE SITUATION IN THE ARMENIAN ARMY

**Annotation**

*It is examined the formation of the army and other armed units in Armenia after the fall of the USSR, the effects of the policy of occupation on the process of building the army, provision of weapons and manpower, and military expenditures in the article. The effects of economic factors and social crisis on the army have been studied. The goal is a comparative analysis of the situation in the army before and after the Second Karabakh war, as well as to study the effectiveness and results of the work being carried out in this area. The psychological state of military personnel in the army, the interest of young people in the military sphere, decisions and measures taken by the state were also analyzed. For the first time, the article makes an attempt to diversify arms supplies to Armenia and study the tactical and technical characteristics of weapons purchased from supplier countries. During the writing of the article, content analysis and comparative analysis were carried out, materials from the Armenian media were collected, systematized and analyzed.*

***Keywords:*** *Armenia, army, weapons, military expenses, psychological situation, security*

**Giriş**

XX əsrin sonu – XXI əsrin əvvəllərində Qafqaz regionu geosiyasi və geostrateji mövqeyinə görə diqqət mərkəzində olmuş, dünyanın aparıcı dövlətlərinin xarici siyasətində mühüm yer tutmuşdur. Müstəqilliklərini bərpa edən Cənubi Qafqaz dövlətləri üçün ən mühüm məsələlərdən biri milli təhlükəsizliyin təmin edilməsi olmuşdur. Milli təhlükəsizlik üçün ən vacib amil müdafiə qabiliyyətinin möhkəmləndirilməsidir. Bu o qədər də asan proses deyildi. 1991-ci ildən sonra Ermənistan iqtisadi ehtiyatların məhdudluğu və büdcə çatışmazlığı səbəbindən ordu qurmaq, hərb sahəsinin sabit inkişafını təmin etmək və hərbi infrastrukturu yeniləməklə bağlı bir çox problemlərlə üzləşmişdir. Ermənistanda digər sahələr kimi ordu quruculuğu və hərbi sahənin inkişafına da mənfi təsir edən başlıca səbəblərdən biri hakimiyyətin işğalçılıq siyasəti yürütməsi olmuşdur.

Tədqiqatın aparılmasında başlıca məqsəd Ermənistan ordusunda hazırki mərhələdə mövcud vəziyyətin tədqiqi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsindən və 2020-ci ildə Ermənistan ordusuna ağır zərbə vurulmasından sonra bu ölkədə hərb sahəsində görülən işlərin təhlilidir. Tədqiqat zamanı statistik və qarşılaşdırmalı təhlil metodlarından istifadə edilmişdir. İlk dəfə olaraq Ermənistanın silah təchizatını şaxələndirmək və təchizatçı ölkələrdən alınan silahların taktiki-texniki xüsusiyyətlərinin öyrənilməsinə cəhd göstərilmişdir.

**Ordu quruculuğunun ilk addımları**

SSRİ-nin süqutundan sonra Qafqaz regionunda yaranan müstəqil dövlətlərin qarşısında duran ilk vəzifələrdən biri ordu quruculuğu idi. Cənubi Qafqaz respublikaları sırasında silahlı dəstələrin təşkilinə, onların əsasında ordu quruculuğuna başlayan ilk respublika Ermənistan olmuşdur. Azərbaycanın suveren ərazilərinin bir qismi məhz bu silahlı birləşmələrin iştirakı ilə zəbt olunmuşdur. Bəzi erməni araşdırmaçılar ordunun yaranma tarixində həmin silahlı dəstələrin təşkilini və onların fəaliyyətini kök, təməl hesab edirlər.

Artıq 1990-cı ildə Ermənistanın müxtəlif yerlərində bir neçə könüllü dəstələr yaradılmış, sərhəd kəndlərində döyüş növbətçiliyi təşkil edilmişdi. Lakin könüllü dəstələrin bəsit formalaşdırılması və əhalinin çox sayda silah-sursat əldə etməsi nəzarətsiz silahlı dəstələr tərəfindən həm də Ermənistan daxilində sabitliyin pozulmasına səbəb olmuşdu. Ermənistanda "müstəqil ordu" 1991-ci ilin əvvəllərində Rusiya ordusunun bazasında formalaşmağa başlamışdır. Əsas qayəsi işğalçılıq olan Ermənistan hökuməti 1992-ci il yanvar ayının 28-də "Ermənistan Respublikasının Müdafiə Nazirliyi haqqında" qərar qəbul etmiş və bu qərara əsasən Ermənistan Milli Ordusu yaradılmışdır. Ölkənin ilk Müdafiə naziri Vazqen Sarksyan olmuşdur. 1992-

ci il mayın 15-də imzalanan keçmiş ittifaq respublikalarında yerləşən hərbi bazaların bölünməsi barədə "Daşkənd sazişi"nin şərtlərinə görə, Ermənistana Rusiya Federasiyasının 7-ci Qvardiya ordusunun tərkibində olan 16 və 17-ci briqadaları, 250 tank, 220 zirehli maşın, 285 artilleriya qurğusu, 100 döyüş təyyarəsi və 50 hücum helikopteri verilmişdir [2. s. 131]. Təbii ki, bu məsələdə Rusiyanın ermənipərəst mövqeyi əhəmiyyətli rol oynamışdır. Hərbi texnikaların yeni, daha yaxşı vəziyyətdə olanları Ermənistana verilmişdir. 1995-ci ildə Vazqen Sarksyan yenidən müdafiə naziri təyin edilmiş və o, 1999-cu ilə qədər bu vəzifədə qalmışdır. Erməni müəlliflərin bölgüsünə əsasən bu dönəm ordunun formalaşdırılması dönəmidir və ER və Azərbaycanın işğal olunmuş Qarabağ ərazisində yeni hərbi hissələr, təlim hissələri və mərkəzləri, atıcılıq poliqonları və kazarmalar yaradılması ilə səciyyələnir [18]. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər ordunun qurulması və ondan sonrakı dövrlərdə də bunu gerçəkləşdirəcəklərinə inanmış, xaricdən olunan yardımlar hesabına işğalçılıq siyasəti yürütmüşlər. Bu amal erməni cəmiyyətinin gözünü bağlamış, bir müddət sonra ordu və hərb sahəsində yaranacaq böhranı şərtləndirmişdir.

Ermənistan Respublikası ordunun möhkəmləndirilməsi işlərinə xüsusi diqqətlə yanaşmışdır. Bunun birinci səbəbi ölkənin sərhədlərinin qorunması, təhlükəsizliyinin təmin olunması göstərilsə də, əslində başlıca məqsədi Azərbaycanın işğal olunmuş torpaqlarında möhkəmlənmək, işğal müddətini uzatmaq olmuşdur. Belə olduğu təqdirdə Ermənistan hakimiyyəti Azərbaycan torpaqlarını talan edə, təbii sərvətlərdən qanunsuz istifadə edə bilərdi. Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında qanunsuz ordu saxlamaq, mövqeləri möhkəmləndirmək bu məqsədə xidmət etmişdir. İşğal müddətində Ermənistan hakimiyyəti və ordusunun əraziləri minalaması, tarixi abidələri dağıtması, məscidləri xarabalıqlara çevirməsi, heç bir quruculuq, abadlıq işləri həyata keçirməməsi sübut edir ki, onlar bu ərazilərin azərbaycanlıların dədə-baba torpaqları olduğunu fikir olaraq ciddi cəhdlə inkar etməyə çalışsalar da, şüuraltında qəbul etmişlər. Xarici qüvvələr də Azərbaycanın yerüstü və yeraltı sərvətlərinin talanmasında, ərazilərinin işğal altında saxlanılmasında Ermənistana hər cür maddi-mənəvi dəstəyi göstərmişlər. İşğalçı dövlətə silah satan, onu hərbi sursatla təmin edən dövlətlər bu yolla terrorçu dövlət və onun siyasətini dəstəklədiklərini nümayiş etdirmişlər.

### Demoqrafik vəziyyət və ordunun canlı qüvvə təminatı

Orduda ən əsas amillərdən biri də canlı qüvvədir. Ermənistan ordusunda 1994-cü ildən etibarən ordu quruculuğu, qoşunların döyüş qabiliyyətinin artırılması, nizam-intizamın möhkəmləndirilməsi, zabit və gizirlərin, o cümlədən müqaviləli kadrların hazırlanması və öyrədilməsi, ordu və cəmiyyət arasında əlaqənin təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Hərbi sahəyə gənclərin marağının artırılması istiqamətində bir neçə proqramlar təşkil olunmuş, qanun layihələri qəbul edilmişdir. Lakin müxtəlif hakimiyyətlər tərəfindən yürüdülən işğalçılıq si-

yasəti ordunun inkişafına mənfi təsirlərini göstərmişdir. Tədricən gənclər arasında hərb sahəsinə marağın azalması ilə yanaşı həqiqi hərbi xidmətdən yayınma hallarının da artdığı müşahidə olunmuşdur.

Müstəqilliyini yeni bərpa etmiş Cənubi Qafqaz respublikalarında etno-demoqrafik vəziyyət demək olar ki eyni idi. Yeni doğulanlar sırasında oğlanların sayı üstünlük təşkil edirdi. 90-cı illərin sonlarına olan statistik məlumatlara əsasən yeni doğulan 100 qız uşağına 115 oğlan uşağı düşürdü. Bu göstəricinin ordunun canlı qüvvə təminatına müsbət təsir göstərəcəyi gözlənilirdi. Lakin yürüdülən yanlış siyasət bu sahədə gözlənilən nəticələr vermədi.

Ümumən Statistika Komitəsinin məlumatına görə, 2016-cı il yanvarın 1-nə ER əhalisinin sayı 2 milyon 998,6 nəfər idisə, 2017-ci ildə bu rəqəm 2 milyon 986,1 min nəfərə qədər azalıb. 2018-ci ildə əhalinin sayı 2 milyon 972,7 min, 2019-cu ildə 2 milyon 965,3 min, 2020-ci ildə 2 milyon 959,7 min və nəhayət, 2021-ci ilin əvvəlinə 2 milyon 963,3 min nəfər olub. Bir sözlə, Ermənistan əhalisi 5 ildə 35,3 min nəfər azalmışdır. Bu geriləmə təbii olaraq, ordunun canlı qüvvə təminatına da təsirsiz ötüşməmişdir.

Ordu-cəmiyyət əlaqələrinin gücləndirilməsi üçün "Hərbi qulluqçuların Sığorta Fondu" yaradılmış, 2016-cı ildə "Müdafiə haqqında" və "Hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bu qanunlar əsasında "Mənəm" və "Şərəfim var" proqramları təşkil olunmuş və cəmiyyətin hazırlığının yüksək səviyyəyə çatdırılmasına, ordunun arxa və ehtiyat qüvvələrinin gücləndirilməsinə xidmət etmişdir. "Mənəm" proqramı müddətli hərbi qulluqçulara güzəştli şərtlərin verilməsinə, "Şərəfim var" proqramı isə ali savadlı hərbçilərin yetişdirilməsinə yönəlmiş proqram idi [18]. Beynəlxalq Strateji Araşdırmalar İnstitutu tərəfindən hazırlanan "2020 Hərbi Balans" hesabatının məlumatına əsasən həmin ildə Ermənistanda hərbçilərin sayı 44.8 min, Azərbaycanda isə 66.95 min nəfər olmuşdur [25]. Bu müqayisə onu göstərir ki, bu müddət ərzində aparılan tədbirlər mənfi nəticə vermiş, Ermənistan ordusu canlı qüvvə təminatında da geriləmişdir.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistan ordusu canlı qüvvə təminatında da daha böyük böhranla üzləşmişdir. Müharibədən sonra Ermənistan hökumətinin ən böyük cinayətlərindən biri müharibə zamanı məhv edilən erməni hərbi qulluqçular haqqında məlumatların təhrif edilməsi və xalqından gizlədilməsi idi. Müharibədən sonrakı iki il ərzində müxtəlif məlumatlar açıqlansa da, itkilər barədə son rəqəmlər 2022-ci il fevralın 10-da parlamentdə hökumət nümayəndələri ilə sual-cavab iclasında ölkənin baş naziri Nikol Paşinyan tərəfindən bəyan edilmişdi. 44 günlük müharibə zamanı erməni tərəfinin itkilərinin sayı 3812 nəfər olması, 217 nəfərin taleyi naməlum olaraq qalması barədə məlumat verilib [1]. Böyük Britaniyanın «The Economist» nəşrinin «Human Mortality Database» və «World Mortality Dataset» saytlarının dünya məlumat bazalarına əsasən dərc etdiyi məlumatda isə Ermənistanın itkilərinin təxminən 6300 nəfər olduğu bildirilmişdir [8]. Ermə-

nistanın məğlub olması və xeyli sayda itki verməsi xalq arasında narazılıqların baş qaldırmasına səbəb olmuşdur. İtkilərin çoxluğundan ekspertiza proseslərinin gecikməsi, ölülərin günlərlə morqlarda, döyüş bölgələrində qalması narazılıqları qabartmış, aksiyalara, hökumət əleyhinə çıxışlara səbəb olmuşdur. Narazı valideynlər övladlarını orduda xidmət etməkdən yayındırmağa çalışmış, orduda fərarilik, itaətsizlik halları artmışdır. Hətta müharibənin getdiyi müddətdə də erməni hərbçilər öz postlarını, mövqelərini tərk etmiş, silahlarını qoyub geriyə qaçmağa çalışmışlar. Əsgərlərin mövqeləri tərk etməməsi üçün komandirləri tərəfindən səngərlərə bağlanılmaları barədə görüntülər ortaya çıxmışdır. Canlı qüvvə təminatı ilə bağlı problemlərlə üzləşən Ermənistan hakimiyyəti İkinci Qarabağ müharibəsi zamanı orduda muzdlu köməyindən istifadə etmişdir. Ermənilərin Qarabağda muzdlulardan istifadə etməsi ilə bağlı ilk məlumatı "Novaya qazeta" qəzetində rusiyalı jurnalist İlya Azar vermişdir. O, məqaləsində Ermənistan tərəfində döyüşmək üçün Qarabağa gələn Fransa vətəndaşı Artur Oqanisyandan müsahibə almışdır [13]. İrəvanda yerli və əcnəbi könüllüləri hazırlayan döyüş təlimatçısı Karapet Ağacanyan Reuters agentliyinə bildirib ki, onun düşərgəsində 10-a yaxın livanlı erməni təlim keçmişdir [11]. Yayılan faktlar Ermənistan rəsmiləri tərəfindən təkzib olunsa da, reallıq dəyişməz olaraq qalmışdır.

Ermənistanda cəmiyyətin ordu ilə bağlı mənfi fikirlərinə müharibənin təsiri danılmazdır. Lakin etimadsızlıq, inamın olmaması, dövlətin hərb, ordu məsələlərində səriştəsiz siyasəti müharibədən əvvəl də hökm sürməkdə idi. 2019-cu il yanvar ayında Ermənistanın keçmiş Müdafiə naziri David Tonoyan Cənubi Kaliforniya Universitetinin Erməni Araşdırmaları İnstitutunun elmi tədqiqatçısı Talin Papazyana verdiyi müsahibədə Ermənistan cəmiyyətində orduya inamın azaldığını, orduda islahatlara ehtiyac olduğunu təsdiqləmişdir [19].

**İqtisadi vəziyyət və hərbi xərclər**

Müstəqilliklərini yenidən bərpa edən Cənubi Qafqaz dövlətləri üçün büdcə formalaşdırılması və xərclərin bölünməsi olduqca çətin və zaman tələb edən proses idi. Bu prosesdə Ermənistan və Azərbaycan üçün hərbi xərclərə üstünlük vermək daha əhəmiyyətli nüans idi. 1995-2020-ci illər ərzində Azərbaycanın hərbi xərcləri Ermənistanla müqayisədə 5 dəfə artıq olmuşdur. 25 il ərzində Ermənistan Müdafiə Nazirliyinə 7,4 milyard dollara yaxın vəsait ayırıb. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) məlumatlarına əsasən Azərbaycan hərbi xərclərinə, müdafiə və təhlükəsizlik sektorlarına 32,5 milyard dollara yaxın vəsait xərcləyib. Yalnız 2020-ci ildə Ermənistanın hərbi xərcləri 634 milyon dollar, Azərbaycanın hərbi xərcləri isə 2.2 milyard dollar təşkil edib. 2021-ci ildə isə Ermənistan Müdafiə Nazirliyinə 600 milyon dollara yaxın, Azərbaycan müdafiə və milli təhlükəsizlik sektorlarına 2,6 milyard dollara yaxın vəsait ayrılmışdır [25]. Hərbi xərclərin artırılması ölkənin iqtisadi vəziyyəti ilə əlaqədardır. Güclü, sabit iqtisadi

artıma malik olan ölkə öz hərbi xərclərini artırmaq gücünə malik olur. Regionda belə ölkələr siyahısına Azərbaycan daxildir. Belə ki, 2020-ci ildə artıq Azərbaycan neft kəmərləri şəbəkələrinin Avropa İttifaqının sərhədlərinə çatması, iqtisadi sahənin, qeyri-neft sektorlarının müsbət inkişafı Azərbaycanın dövlət büdcəsinin artması ilə və hərbi xərclərin/ÜDM nisbətinin 3,9%-dən 5,4%-ə yüksəlməsi ilə nəticələnmişdir [25]. Ermənistanda isə XX əsrin sonlarından XXI əsrin ikinci on illiyinə qədər iqtisadi vəziyyət gərginləşmiş, hərbi xərclərdə əhəmiyyətli azalmalar qeydə alınmışdır. 2008-ci ildə yaranmış maliyyə böhranı Ermənistan iqtisadiyyatına ciddi təsir göstərmiş, 2008-2009-cu illər Ermənistanın ÜDM-i 11,7 milyard dollardan 8,6 milyard dollara düşmüşdür [25]. Bu da 26% fərqlə azalma demək idi. 2020-ci ildə baş verən müharibədə Ermənistanın məğlubiyyəti daha bir məqamı üzə çıxarmışdır. Aydın olmuşdur ki, ölkənin gəlirləri ilə hərbi xərcləri mütləq mütənasib olmalı, hərbi xərclərin artırılması büdcə gəlirləri nəzərə alınmaqla həyata keçirilməlidir. Ermənistan isə uzun illər işğalçı məqsədlərə uyğun olaraq yalnız hərbi xərcləri artırmışdır. Bu isə onun iqtisadi baxımdan da zəifləməsinə gətirib çıxarmışdır.

**Ordunun silah təminatı və təminatçı ölkələr**

Ermənistan ordusunun hərbi sursat təminatını ödəməkdə ən böyük pay Rusiyanındır. Rusiya ilə Ermənistan arasında hərbi əlaqələr 1992-ci ildən, Sovet İttifaqı dağılandan dərhal sonra yaranıb. Ermənistan Respublikası 1992-ci il mayın 15-də Kollektiv Təhlükəsizlik Müqaviləsini imzalayaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olmuşdur. Bu təşkilata üzvlük digər sahələr kimi ordu sahəsində də Ermənistan üçün imkanlar yaratmışdır. Həmçinin 1997-ci ildə imzalanmış dövlətlərarası sazişə əsasən Rusiya Federasiyası və Ermənistan Respublikası təhlükəli vəziyyətlərdə bir-birinə kömək etməyi öhdələrinə götürmüşlər. Rusiya öz siyasətində Ermənistandan istifadəyə üstünlük vermiş və onun əsas silah və silah sistemlərinin tədarükçüsü olmuşdur. 1995-1996-cı illərdə Rusiya Ermənistana 1 milyard dollar dəyərində silah və texnika ötürülməsini reallaşdırmışdır. Bu təminata “Scud” operativ-taktik raketləri də daxil idi [10, s.49]. Həmçinin Ermənistan 9K72 «Elbrus» OTRK-larını və onlar üçün 32 ədəd maye yanacaqlı, R-17 qəlpəli-fuqas raketlərini 1993-1996-cı illərdə Rusiyadan əldə etmişdir [3]. 1997-ci il fevralın 14-də Rusiya Federasiyasının MDB ölkələri ilə əməkdaşlıq naziri Aman Tuleyev bəyanatla çıxış edərək Rusiya silahlarının qanunsuz olaraq Ermənistan Respublikasına göndərilməsi faktını açıqladı. Onun verdiyi bəyanatdan aydın olurdu ki, 1994-1996-cı illərdə Ermənistana ümumi məbləği 270 milyard rubl olan 84 ədəd T-72 tankı, 50 zirehli maşın, habelə onlar üçün ehtiyat hissələri göndərilmişdi [5, s.266].

2006-2007-ci illərdə Rusiya tərəfindən Gürcüstandakı Axalkələk və Batumi hərbi bazalarından daşınan əmlakın böyük bir hissəsi Ermənistanda yerləşən 102-ci bazaya deyil, Ermənistan ordusuna verilmişdir [10, s. 49]. Bundan əlavə 16 ədəd 2S3 “Akatsiya” özüyeriyən artilleriya sistemi də Ermənistana bağışlanılmışdır.

Ermənistan 2001-ci ildə 1 ədəd Mi-24P helikopteri, 2003-cü ildə 2 ədəd Mi-8İV, 5 ədəd Mi-8MT, 2004-cü ildə 2 ədəd İl-76M hərbi nəqliyyat təyyarəsi, 2011-ci ildə Rusiyadan 2 ədəd Mi-24 zərbə helikopteri, 2009-cu ildə 4 kompleks S-300PS, açıqlanmayan sayda QAZ-2975 "Tiqr" zirehli avtomobili əldə etmişdir [10, s. 49]. 2013-cü ildə imzalanan Rusiya-Ermənistan hərbi əməkdaşlıq sazişi Ermənistanın Rusiya hərbi texnikasını Rusiyanın daxili qiymətlərinə almasını nəzərdə tutmuşdur. Ermənistana əvəzsiz, münasib qiymətlərlə silah ötürmə ənənəsi bu günə qədər də fasiləsiz olaraq davam etdirilmişdir.

2011-2020-ci illər ərzində Rusiya tərəfindən Ermənistana zirehli şəxsi heyət daşıyıcıları, hava hücumundan müdafiə sistemləri və çoxsaylı reaktiv yaylım atəşi sistemləri, həmçinin tanklar göndərilmişdir. Ermənistan bu silahlardan İkinci Qarabağ müharibəsində istifadə etmişdir. Rusiyanın 2016-cı ildə tədarük etdiyi 300 kilometr mənzilli "İsgəndər" raketləri də bu siyahıya daxildir. Ermənistan 2016-2017-ci illərdə Rusiyadan aldığı "Smerç" raket kompleksindən Azərbaycan şəhərlərinin bombalanmasında istifadə etmişdir. Bu prosesdə istifadə olunan digər raket Elbrus raketi də Rusiyada istehsal olunur və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv dövlətlər digər silahlar kimi onu da güzəştli şərtlərlə ala bilərlər. Oktyabrın 11-də, erməni silahlı qüvvələrinin Gəncəyə dağıdıcı raket zərbəsi nəticəsində çoxmənzilli bina yerlə-yeksan olmuş, 10 nəfər həlak olmuş, 35 nəfər yaralanmışdır. Oktyabrın 17-dəki hücum nəticəsində isə 13 nəfər həlak olmuş, 50-dən çox dinc sakin yaralanmışdır. Azərbaycan rəsmiləri hər iki hücumun «Elbrus» tipli raketlərlə edildiyini bildirmişlər.

Ermənistanın işğalçılıq siyasətinin davam etdirilməsinə töhvə verən ölkələrdən biri də Hindistan olmuşdur. Hərbi sahədə Ermənistan-Hindistan tərəfdaşlığının kökü o qədər də qədim deyildir. Hindistan son dövrlər Azərbaycan, Pakistan və Türkiyə əlaqələrinin sürətlə inkişaf etməsindən birmənalı şəkildə narahat olmuş və bu narahatlıq fonunda Ermənistanla hərbi əlaqələrini gücləndirmişdir. Həmçinin Pakistanın Ermənistanla haqlı mübarizədə Azərbaycanı dəstəkləməsi, ölkəmizin Kəşmir məsələsində Pakistanı müdafiə etməsi Hindistanın Ermənistanla münasibətlərinə təsir edən əsas amillərdəndir. "Armenianweekly" saytında dərc olunan məlumata əsasən Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində atdığı addımların qarşısını almaq üçün Ermənistan və Hindistan Respublikaları arasında bir sıra hərbi razılaşmalar əldə olunmuşdur. İkinci Qarabağ müharibəsi zamanı Hindistan Ermənistanı "Svati" əks-artilleriya radarları ilə təchiz etmişdi [7, s.4]. Ermənistanın yeni silah tədarükü ilə bağlı bəzi Hindistan saytlarında da məlumatlar dərc olunur. Belə ki, Hindistanın "The Economic Times" qəzetində "Ermənistan silahlanır. Hindistan reaktiv raketlər və silah-sursat ixrac edəcək" adlı məqalədə bildirilir ki, İrəvan silah almağa 20 milyard rupi (244,7 milyon dollar) xərcləyib. Bu nəşrin məlumatına əsasən silah tədarükü müqavilələri 2022-ci ilin sentyabr ayında imzalanıb. Silah sövdələşməsinə 250 milyon ABŞ dolları dəyərində Pinaka çoxbarrelli reaktiv

yaylım atəşi sistemləri (MBRL), tank əleyhinə raketlər, döyüş sursatlarının ixracı daxildir. Qeyd etmək lazımdır ki, Pinaka çoxbarrelli reaktiv yaylım atəşi sistemləri Hindistanın yerli texnikasıdır və Hindistan "Pinaka" raketlərini Ermənistanın timsalında ilk dəfə olaraq xarici ölkəyə satır. Məqalədə reaktiv yaylım atəşi sistemlərinin qiymətinin münasib və istifadəsinin sadə olmasından bəhs edilib, həmçinin onun Ermənistan üçün ideal silah sistemi olması vurğulanmışdır. Hindistanın 214 mm-lik bütün hava şəraitinə uyğun «Pinaka» raketləri canlı qüvvəni, yüngül zirehli texnikanı və istehkamları məhv etmək, həmçinin piyada və tank əleyhinə mina bəndlərini uzaqdan quraşdırmaq üçün nəzərdə tutulmuşdur. Hindistanın "Firstpost" saytında dərc olunan məlumatda da Ermənistanın Hindistan istehsalı olan pilotsuz uçuş aparatları (PUA) və PUA əleyhinə müdafiə sistemlərini almaqda maraqlı olduğu və yaxın zamanlarda daha çox sövdələşmənin imzalanacağı bildirilmişdir [12].

2023-cü ilin noyabr ayında Hindistanın "EurAsian Times" xəbər saytı Ermənistanın Heydərabad şəhərində fəaliyyət göstərən "Zen Technologies" şirkəti ilə ümumi dəyəri 41,5 milyon ABŞ dolları olan pilotsuz təyyarələrlə mübarizə sistemlərinin alması üçün müqavilə imzaladığı barədə məlumat dərc etmişdir [31]. Bu sistem PUA-ları aşkarlamaq, növünü müəyyənləşdirmək və onların rabitə sistemini pozaraq zərərsizləşdirmək gücünə malikdir. İmzalanan bu müqaviləyə sistemlərlə işləmək üçün hərbi heyətin hazırlanmasını nəzərdə tutan təlimlər də daxil edilmişdir.

İran və Ermənistan Respublikaları arasında da müəyyən hərbi əməkdaşlıq barədə məlumatlar vardır. İki ölkə arasında münasibətlərin qurulmasına dayanan sənəd 1992-ci ilin fevral ayında "Ermənistan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlərin prinsipləri və məqsədləri haqqında" bəyannamədir. Ermənistan və İran İslam Respublikaları arasında imzalanan sənədlər və müzakirələrlə bağlı məlumatlara əsasən hərbi əməkdaşlıq sahəsində sistemli əlaqələr isə 2000-ci ildən sonra güclənmişdir. 2009-2011-ci illərdə dövlət rəsmiləri səviyyəsində keçirilən görüşlərdə müzakirə edilən sahələr içərisində təhlükəsizlik sahəsinin mühüm əhəmiyyəti olmuşdur [3, s.33]. 2015-2018-ci illərdə İran İslam Respublikası ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi məsələsi Ermənistanda qəbul edilən hökumət proqramlarının əksəriyyətinə daxil edilmişdir [3, s.35].

2022-ci ildə İranın Qafanda konsulluq açmasının Ermənistan və İİR arasında hərbi müttəfiqliyin möhkəmləndirilməsinə də töhfə verəcəyi gözlənilir. İranın Xarici İşlər nazirinin Qafanda Tehranın Ermənistan və İranın təhlükəsizliyini eyni səviyyədə hesab etməsi ilə bağlı bəyanatı da bu nəticəyə gəlməyə əsas verir.

İslam İnqilabı Keşikçiləri Korpusunun keçmiş komandanı və İranın Ali Dini Rəhbərinin baş hərbi köməkçisi general-mayor Yəhya Rahim Səfəvi 2022-ci ilin oktyabr ayında İran istehsalı olan pilotsuz uçuş aparatının alınması üçün rəsmi müraciət edən dövlətlər sırasında Ermənistanın da olduğunu təsdiqləmişdi [17].

Ermənistan ordusunun silah tədarükü gördüyü ölkələrin siyahısına Serbiya da daxildir. BMT Adi Silahlar Reyestr sisteminə Ermənistan tərəfindən təqdim edilmiş

məlumatlara əsasən 2007-ci ildə İrəvan Serbiyadan 250 ədəd M93 "Black Arrow" snayper tüfəngi və 100 ədəd 30 mm çaplı AGM-17 qumbaraatanı satın almışdır. Bosniya və Hersoqovina üzərindən satışı həyata keçirməklə Ermənistana 200 ədəd M-57 və M70 "Commando" minaatanı və 2016-cı ildə açıqlanmayan sayda 82 mm çaplı M79 dəzgahlı qumbaraatan (həmçinin bu silah üçün döyüş sursatı) və M-80 tipli biratımlı qumbaraatanlar ixrac etmişdir. Həmçinin Ermənistanın silah satınalmalarında 2018-ci ilədək Serbiyanın "DG Arms Corporotion" şirkəti əsas rolu oynayıb. Bu şirkətin adı Liviya və Suriyaya qanunsuz silah satışında da dəfələrlə hallanıb. 2019-cu ilin avqust ayında Serbiya istehsalı olan 20 mm çaplı M55A4B1 zenit qurğusu Qarabağdakı erməni separatçı hərbi birləşmələrinin istifadəsi üçün əldə edilmişdir [9].

Ermənistana silah satan ölkələr siyahısında az faizlə İordaniya Krallığının da adı var. 2019-cu ildə Ermənistan İordaniyadan istifadə edilmiş "Osa-AKM" hava hücumundan müdafiə sistemləri almışdır [30]. Həmin ildə həmçinin Bolqarıstan da Ermənistana 500 ədəd qumbara və 1094 pulemyot satmışdır [30].

2023-cü il iyun ayının 5-də Təhlükəsizlik Şurasının rəhbəri Armen Qriqoryan İctimai Televiziyaya müsahibəsində Ermənistanın yeni silahların əldə edilməsi ilə bağlı bir çox ölkələrlə intensiv müzakirələr apardığını vurğulamışdı. O, bildirib ki, *"Ermənistan Rusiya-Ukrayna müharibəsini nəzərə alaraq indi silah idxal edə bilmir və başqa resurslar tapmaq yoluna çıxır. Biz təhlükəsizlik sektorunda əməkdaşlığımızı gücləndirmək üçün Qərb tərəfdaşlarımızla da intensiv işləyirik və bu işi davam etdirəcəyik".* Bundan sonra Erməni politoloqu Andrias Qukasyan "Jam news"-a verdiyi müsahibədə Ermənistanın Rusiya ilə olan hərbi əməkdaşlığını Qərb dövlətləri ilə əvəzləməli olduğunu bildirmişdi. Bütün bunlar onu deməyə əsas verir ki, artıq Ermənistan Qərbyönümlü siyasətə maraq göstərir və hərbi sahədə buna daha çox yer ayırmağı planlayır. "Araratnews" saytının Intelligence Online agentliyinin məlumatına əsasən 2023-ci il aprel ayının 28-də dərc etdiyi məqaləsində qeyd olunub ki, Fransanın Xarici işlər naziri Ketrin Kolonna İrəvanda Ararat Mirzoyanla keçirdiyi brifinqdə Fransanın İrəvandakı səfirliyinə hərbi attaşe təyin edilməsi barədə müzakirələr aparıldığını bildirib. Həmçinin məqalədə vurğulanır ki, bu qərar Fransanın Ermənistanla öz hərbi əlaqəsini yaratmaq və bununla da Ermənistanın Moskva ilə həm etimad, həm də silah-sursat baxımından müstəsna hərbi əlaqələrini dayandırmaq istəyinin ifadəsi ola bilər [23]. Fransa və Ermənistan arasında hərbi əməkdaşlığın qurulması barədə müzakirələr 2020-ci ildə Azərbaycan ordusunun topraqlarını işğaldan azad etməsi uğrunda həyata keçirdiyi hərbi əməliyyatlardan sonra fəallaşmağa başlamışdır.

2023-cü il oktyabr ayında ER Müdafiə naziri Suren Papikyan və fransız həmkarı Sebastien Lecor hərbi əməkdaşlıqla bağlı sazişə imza atmışlar. Bu sazişə görə Ermənistan Fransanın "Thales" müdafiə qrupundan üç "Ground Master 200 (GM220)" radar sistemi alacaq. Bu radar PUA, helikopter, qanadlı raketləri aşkar etmək və izləmək qabiliyyətinə malikdir. Fransa bu sistemlərdən ikisini də Ukraynaya satıb.

Moldova, Hollandiya və Norveç də GM 200 fransız radarlarına malikdirlər. Müəyyən mənbələrə əsasən bir sistemin təxmini dəyəri 14 milyon avrodur [16].

Oktyabr ayında imzalanan sazişə həmçinin "Mistral" hava hücumundan müdafiə raketləri də daxildir. Raketlər 8 km-ə qədər məsafədəki hədəfləri vurmaq gücündədir və Fransa Müdafiə naziri tərəfindən islehsalının təxminən 500.000 avroya başa gəldiyi açıqlanmışdı [16].

**Orduda itaətsizlik, rüşvət, cinayət halları**

İkinci Qarabağ müharibəsindən sonra hökumət gənclər arasında hərb sahəsinə qarşı yaranan etimadsızlığı aradan qaldırmaq üçün öz səylərini artırmışdır. Hökümətin 1091 nömrəli qərarına əsasən, 2020-ci ildən etibarən müqavilə əsasında xidmət edən hərbi qulluqçular və zabitlərə mənzil və ya yaşayış evlərinin güzəştli şərtlərlə verilməsinə başlanılmışdır [15]. Lakin bu qərar da orduya olan marağı artıra bilməmiş, gözlənilən nəticələri verməmişdi. İnamsızlığın kökləri həm də rüşvət və cinayət halları ilə bağlıdır. Belə ki, "Azadutyun" saytı 2022-ci ilin avqust ayında bir həftə ərzində qeyri-döyüş şəraitində üç hərbçinin intiharı ilə bağlı məlumat dərc etmişdir. Helsinki Vətəndaş Assambleyasının Böyük Qarakilsə (Vanadzor) ofisinin hüquq müdafiəçisi Armine Sadikyan həmçinin 2018-ci il hakimiyyət dəyişikliyindən və müharibədən sonra belə hadisələrin qarşısının alınması üçün orduda heç bir islahatların aparılmadığını və hakimiyyət tərəfindən verilən vədlərin yerinə yetirilmədiyini bildirmişdir. O, həmçinin dövlət tərəfindən sistemli islahatlar aparılmasa, oxşar halların davamlı olacağını vurğulamışdır. Helsinki Vətəndaş Assambleyasının Böyük Qarakilsə (Vanadzor) ofisinin məlumatına əsasən 2022-ci ildə intihar hadisəsi ilə bağlı 6 cinayət işi açılmışdır, 2020-ci il – müharibə ilində intihar maddəsi ilə başlanan cinayət işlərinin sayı 18, 2018-ci ildə 11, 2017-ci ildə 10 olmuşdur, 2016-cı ildə isə qeyri-döyüş şəraitində ölüm hallarının 15-i intihar maddəsi ilə başlanmışdır [14]. (şəkil1)




*Şəkil 1.*

2019-cu ilin dekabr ayında orduda intihar edən iki hərbçidən biri Artur Acamyanın hüquq müdafiəçisi onun ölümündən əvvəl ordudakı vəziyyətlə bağlı ailəsinə dediklərini mətbuata açıqlamışdır: *"Kimisə öldürmək istəyirlərsə, aparırlar, mövqelərdə öldürürlər, hərbi hissədə problemlər var, cəhənnəm kimi vəziyyət hökm sürür"* [22].

2022-ci ildə Ermənistan ordusunda qeyri-döyüş şəraitində qətllər, sağlamlıqla bağlı məsələlər və intihar halları ilə ölənlərin sayı atəşkəsin pozulması nəticəsində ölənlərin sayından bir neçə dəfə çoxdur [14]. Hərbi ekspert David Camalyan da "Sputnik Armenia" kanalına verdiyi müsahibədə orduda ciddi sistem problemlərinin olduğunu, çox sayda zabit, tağım və bölük komandirləri vəzifələrinin boş qaldığını bildirmişdir. O, mövcud vəziyyətlə əlaqədar olaraq zabit qıtlığının, orduda nəzarət, intizam problemlərinin yarandığını vurğulamışdır. Həmçinin mövcud rəhbərliyin "hərbi islahatlar" adı altında əsas diqqəti orduya deyil, polis və patrul xidmətinə yönəltdiyini, daha çox polisin öz vətəndaşlarına qarşı istifadə edə biləcəyi təzyiq aparatı kimi genişlənməsində və güclənməsində maraqlı olduğunu açıqlamışdır [26].

2023-cü il yanvar ayının 19-da Başkənd (Qeğarkunik) vilayətinin Azad kəndində yerləşən hərbi hissənin sığınacağında baş verən yanğın nəticəsində 15 erməni hərbçisi həlak olmuşdur. Aprel ayında yanğında ölən hərbçilərin valideynləri Baş nazir Nikol Paşinyan və Müdafiə naziri ilə görüş tələb edərək hökumət binası qarşısında etiraz aksiyası keçirmişlər [21]. Hökumət iclaslarının birində baş nazir hadisənin əsgərlərin ehtiyatsızlığı nəticəsində baş verdiyi ilə bağlı açıqlama vermişdir. Lakin valideynlər ordunun lazımı vasitələrlə tam təmin olunmadığını bildirmiş, hadisənin qəsdən törədildiyini iddia etmiş, səlahiyyətli şəxsləri günahlandırmışlar [27], [29]. Bu hadisə də daxil olmaqla Ermənistan ordusunda digər illərlə müqayisədə 2023-cü ildə qeyri-döyüş şəraitində ölənlərin sayı 31 faiz artmışdır [6].

Ermənistan ordusunda müqavilə əsasında xidmət edən hərbçilərin sayı ildən-ilə azalmaqdadır. 2010-2019-cu illər arasındakı göstəriciyə əsasən müqavilə əsasında xidmət göstərən hərbi qulluqçuların sayı 44 faiz azalmışdır. Belə ki, 2010-cu ildə müqavilə əsasında xidmət göstərən hərbçilərin sayı 44 min idisə, 2019-cu ildə bu say 24 min olmuşdur [24]. Son 15 il ərzində hər il ölkədə əvvəlki ilə nisbətən daha az müqavilə əsasında xidmət göstərmək istəyən hərbi qulluqçu qeydə alınır [24].

Qeyri-erməni hərbi qulluqçulara qarşı orduda nizamnamədən kənar halların baş verməsinə dair erməni mətbuatında müəyyən məlumatlar vardır. 2017-ci ildə ABŞ-ın Ermənistandakı səfirliyinin rəsmi saytında "Dini Azadlıqlar üzrə Beynəlxalq Hesabat 2016" adlı hesabat dərc olunmuşdur. Hesabatda hərbi sahədə dini azadlığın necə təmin olunması və milli azlıqlara münasibət ilə bağlı bir neçə fakt qeyd olunmuşdur. Saytda dərc olunan yazıda "Demokratiya Naminə Əməkdaşlıq" QHT-nin hesabatından da nümunələrə yer verilmişdir. Həmin QHT-nin martın 9-da yayımladığı hesabatında dövlət, ictimai, təhsil müəssisələrində və hərbi strukturlarda dini baxışlara görə ayrı-seçkilik və işdən çıxarılma halları yer almışdır. Bu məlumata

əsasən, belə nəticəyə gəlmək olar ki, hökumət Erməni Apostol Kilsəsindən başqa hər hansı digər dini qruplara qoşulmağı qadağan edir [32]. Hesabatda bildirilmişdir ki, yezidi dini qruplarının üzvləri olan yezidilər hərbi xidmət zamanı ayrı-seçkiliyə məruz qalmış, onlara dini və etnik kimliklərinə görə hərbi orqanlarda xidmət etməyə icazə verilməmişdir. Çağırışçı yezidilər hərbi xidmət zamanı hərbi hissələrdə Erməni Apostol Kilsəsinin hərbi keşişləri tərəfindən dini ayinlər icra etməyə məcbur edilmişlər. Daha bir məlumatda 2015-ci ildə işindən dini baxışına görə uzaqlaşmağa məcbur qalan kilsə davamçılarından birinin 2016-cı ilin sentyabr ayında Silahlı Qüvvələrdə yenidən öz xidmətini bərpa etmək üçün müraciətinə rədd cavabı gəldiyi bildirilmişdir. Gəlinən nəticə ondan ibarətdir ki, Ermənistanda Erməni Apostol Kilsəsindən başqa hər hansı digər dini qruplara aid olan şəxslərin hərbi sahədə fəaliyyətləri sıxışdırılır.

Son on il ərzində Ermənistanda rüşvət halları artmaqdadır. 2019-ci ildə dərc olunan "Ermənistanda Korrupsiya ilə bağlı ictimai rəyin öyrənilməsi" adlı jurnalda cəmiyyətdə ən çox mövcud olan problemlər sırasında korrupsiya yer almışdır [20]. Bu "artım" ordu sahəsində də özünü göstərir. Müdafiə Nazirliyinin yüksək rütbəli məmurları bir sıra korrupsiya aktları ilə bağlı Milli Təhlükəsizlik Xidməti tərəfindən saxlanılmışlar. Orduda rüşvət halları İkinci Qarabağ müharibəsi vaxtı daha çox qeydə alınmışdır. Belə ki, Ermənistanda və keçmiş qondarma "respublika"da elan edilmiş hərbi vəziyyətlə əlaqədar hərbi əməliyyatların aparıldığı yerlərdə yerləşən hərbi hissələrdə xidmətdən yayınmaq üçün rüşvət alınma faktları qeydə alınmışdır. Hüquq müdafiəçiləri dəfələrlə müsahibələrində həm keçmiş, həm də indiki hakimiyyətin ordudan korrupsiya hallarını təmizləyə bilmədiklərini, verilən vədlərin yerinə yetirilmədiyini, görülən cüzi tədbirlərin isə səmərəsiz olduğunu etiraf etmişlər. Ermənistan ordusunda nizamnamədənkənar davranışlar, gənc çağırışçılara qarşı daimi zorbalıq, rüşvət verməklə hərbi xidmətdən yayınma halları ilə yanaşı ordunun qida təchizatındakı korrupsionerlik də ciddi dərəcədə yüksəlmişdir. Təsadüfi deyil ki, 2007-2008-ci illər ərzində ordunun şəxsi heyəti arasında mədə-bağırsaq, dəri və dizenteriya xəstəliklərinin sayı iki dəfə artmış və bu göstərici illər keçdikcə daha da irəliləmişdir. Yerlərdə aparılan yoxlamalar zamanı hərbçilərin gündəlik rasionunda saxlama müddəti ötmüş, keyfiyyətsiz ərzaq məhsullarından istifadə edildiyi aşkarlanmışdır. 2019-cu ildə jurnalistlərin suallarını cavablayan baş nazir Nikol Paşinyan bu sahədə də problemlərin olduğunu təsdiqləmişdir. O, cəbhə bölgəsində əsgərlərə verilən yeməklərlə tanış olaraq ciddi çatışmazlıqlarının olduğunu açıqlamış, həmçinin orduda yemək təminatı məsələlərində korrupsiya hallarının aşkarlandığı vurğulamışdır [33].

2021-ci ildə ordu üçün nəzərdə tutulan yeməklərin satılması ilə bağlı xəbərlər də mətbuatda dərc olunmuşdur. Ermənistan Respublikasının keçmiş müdafiə naziri Artak Karapetyan müsahibələrinin birində ordunun qida təminatında qeydə alınan qanun pozuntularını etiraf etmişdir.

İkinci Qarabağ müharibəsindən sonra erməni mətbuatında əsgərlərin xidmət şəraitləri ilə bağlı görüntülər yayımlanmışdır. Bu görüntülərdə əsgərlərin soyuq daşların üstündə gecələdikləri, istilik üçün vasitələrlə təmin olunmadıqları öz əksini tapmışdır [28].

Hərbi qulluqçuların psixoloji cəhətdən də sağlam olmamaları barədə mətbuatda məlumatlar dərc edilmişdir. Hüquq müdafiəçiləri orduda psixoloji və sosial adaptasiya işlərinin aparılmadığını, bunun üçün kifayət qədər mütəxəssis və kadrların olmadığını, bu istiqamətdə də vəziyyətin acınacaqlı olduğunu qeyd etmişlər [22].

**Nəticə**

Yürütdüyü işğalçılıq siyasəti Ermənistanın ümumi iqtisadi inkişafına zərbə vurduğu kimi, ölkənin real təhlükəsizliyinin təmin olunmasına da imkan verməmişdir. Ordu müdafiə və təhlükəsizlik təminatı deyil, işğalçılıq alətinə çevrilmişdir. Ermənistan ordusu hazırda çətin dövrünü yaşamaqdadır. Ordunun xalq, cəmiyyət qarşısında nüfuzu zəifləmişdir. Xarici qüvvələrin humanitar dəstək adı altında silah təminatı da işğal siyasətinə xidmət edən Ermənistan ordusunu vəziyyətdən çıxara bilməmişdir.

Hazırda Ermənistan ordusunda canlı qüvvə azlığı və müharibədə əsgərlərin öz möqvelərini qoyub qaçması nəticəsində ciddi sayda texnika, hərbi silah-sursat çatışmazlığı yaşanır. Yaranmış bu xaos orduda cinayət hallarının, yüksək vəzifəli hərbi səlayihətlilər tərəfindən özbaşınalıqların artmasına da səbəb olmuşdur. Zabitlərin əsgərlərə işgəncələr verməsi adi hala çevrilmişdir. Əsgər və zabitlər şəraitsiz, xüsusi qayğı və təminatsız vəziyyətdə xidmət edirlər. Bu səbəblərdən dolayı Ermənistan ordusunda hər il fərarilik, ölüm, döyülmə, rüşvətxorluq, intihar və digər hərbi cinayətlərin sayı durmadan artmaqdadır.

**İstifadə edilmiş ədəbiyyat**

*Azərbaycan dilində*

1. Cəfərov, A. Ermənistan ordusu müharibədə nə qədər itki verdi? : [Elektron resurs] / – Ordu az, – 19 Fevral, 2022. URL:https://ordu.az/az/news/210485/ermenistan-ordusu-muharibede-ne-qeder-itki-verdi-seriyalar-davam-edir

2. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait / Q.Hacıyev, E.Kəlbizadə, A. Eyvazov, T. İsmayılova, A. Əzimzadə, Ş. İmaməli / – Bakı: MTM Innovation MMC, – 2019, 352 s.

3. Ermənistan ordusunun arsenalında olan OTRK-lar. Araşdırma (Hərbi ekspert) : [Elektron resurs] / – Ordu az, – 13 Oktyabr 2020 URL: https://ordu.az/az/news/171824/ermenistan-ordusunun-arsenalinda-olan-otrk-lar-arasdirma-herbi-ekspert

4. Kəlbizadə, E. Ermənistan-İran münasibətlərində ədliyyə, gömrük, hərbi və sərhəd təhlükəsizliyi məsələləri // – Bakı: Sosilogiya. Sosial psixologiya. Siyasət (Elmi araşdırmalar jurnalı), – 2021. №1, – s.31-38

5. Qasımlı, M. Azərbaycan Parlamentarizm tarixi// M.C.Qasımlı, B.Ə.Muradova – Bakı: Mütərcim nəşriyyatı, – 2018, – 696 s.

6. Qorxmaz A. Bu il Ermənistanda 74 hərbçi ölüb, intiharlar artıb: [Elektron resurs] / – Modern.az, – 14 noyabr, 2023. URL:https://modern.az/dunya/440980/bu-il-ermenistan-ordusunda-74-herbchi-lub-intiharlarin-sayi-artib/

7. Mətinli, M. Ermənistanın hərbi gücünü artırmaq siyasəti revanşizm meyilləri kontekstində// – Bakı: Beynəlxalq Münasibətlərin Təhlil Mərkəzi, – 2023, –s.1-5

8. Mövludoğlu, A. 44 günlük müharibədə Ermənistanın itkiləri təxminən 6300 nəfər təşkil edib: [Elektron resurs] / – Ordu.az, – 16 Sentyabr, 2021. URL: https://ordu.az/az/news/198503/44-gunluk-muharibede-ermenistanin-itkileri-texminen-6300-nefer-teskil-edib

9. Serbiya Ermənistana hansı silahları satıb-siyahı: [Elektron resurs] / – Poliqon.az, – 20 iyul 2020. URL:https://poliqon.az/serbiya-erm%C9%99nistana-hansi-silahlari-satib-siyahi/

10. Süleymanov, R. Ermənistanın açıq və gizli silah alveri: regional təhdidlər artır // – Bakı: Azeri Defence, – 2015, № 03 (17), – s.48-53

*İngilis dilində*

11. Semedyan, M., Francis, E. Despite Lebanon’s woes Armenians spring to action for Nagorno-Karabakh: [Electronic resource] / – Reuters.com, November 1, 2020. URL:https://www.reuters.com/article/armenia-azerbaijan-lebanon-idINKBN27H153/

12. Taciyan, Y. The Geopolitical İmplications of İndia of arms sale to Armenia: [Electronic resource] / Armenian Weekly, – August 9, 2023. URL: https://armenianweekly.com/2023/08/09/the-geopolitical-implications-of-indias-arms-sale-to-armenia/

13. Valiyev A. Mercenaries in Karabakh: Who they are and how they got there: [Electronic resource] / Politics today, – December 2, 2020. URL: https://politicstoday.org/mercenaries-in-karabakh-who-they-are-and-how-they-got-there/

*Erməni dilində*

14. Բանակում ինքնասպանություն որակված դեպքերով չկա մի դեպք, որ պատշաճ քննեն ու բացահայտեն. Իրավապաշտպան (Orduda elə bir intihar faktı yoxdur ki, düzgün araşdırılıb üzə çıxarılsın. İnsan hüquqları müdafiəçisi) :[Էլեկտրոնային ռեսուրս] / Ազատություն, Օգոստոս 11, 2022 URL: https://www.youtube.com/watch?v=AwiAwsjdvhQ&t=2s

15. Պետության կողմից կանխավճարի սուբսիդավորումը կիրականացվի կոնկրետ չափով. նախագիծ.«Փաստ» (Dövlət tərəfindən ilkin ödəniş subsidiyaları konkret məbləğdə həyata keçiriləcək. Layihə: «Fakt») : [Էլեկտրոնային ռեսուրս]

/ Թերթ, Ապրիլ 8, 2023 URL: https://www.tert.am/am/news/2023/04/08/past/3919710

16. Ֆրանսիայի ԶՈՒ նախարարը մանրամասնում է Հայաստանի հետ գործարքը (Fransanın müdafiə naziri Ermənistanla sövdələşmənin təfərrüatlarını açıqlayır) : [Էլեկտրոնային ռեսուրս]/ "Ազատություն", Հոկտեմբեր 24, 2023 URL: https://www.azatutyun.am/a/32651859.html

17. ՀՀ-ն պաշտոնական հայտ է ներկայացրել իրանական արտադրության մարտական անօդաչու սարքեր գնելու համար (ER İran istehsalı olan döyüş təyyarələrinin alınması üçün rəsmi təklif təqdim edib) [Էլեկտրոնային ռեսուրս] / Aysor.am, – Հոկտեմբեր 10, 2020. URL:https://www.aysor.am/am/news/2022/10/20/%D4%B1%D4%B9%D5%8D/2019781

18. Հայկական բանակի կազմավորումը եւ ճանապարհը (Ermənistan ordusunun formalaşması və keçdiyi yol) : [Էլեկտրոնային ռեսուրս] / "Altprojects.am", – Մարտ, 2018 . URL:https://altprojects.am/?p=44&l=am/haykakan+banaki+kazmavorumy+e%D6%82+chanaparhy

19. Հայաստանի Զինված ուժերը պետք է որդեգրեն ավելի առաջանցիկ գործելաոճ (Ermənistan Silahlı Qüvvələri daha mütərəqqi iş üsuluna keçməlidir) : [Էլեկտրոնային ռեսուրս] / – "Civilnet.am", – Փետրվար 25, 2019.URL:https://www.civilnet.am/news/189389/%D5%B0%D5%A1%D5%B5%D5%A1%D5%BD%D5%BF%D5%A1%D5%B6%D5%AB-%D5%

20. Հայաստանում Կոռուպցիայի վերաբերյալ հանրային կարծիքի ուսումնասիրություն մատյանը, ("Ermənistanda korrupsiya ilə bağlı ictimai rəyin tədqiqi" jurnalı) Երևան, 2019, էջ. 81 URL:https://transparency.am/hy/publication/pdf/203/1302

21. Հովսեփյան, Գ. Փորձ է արվել հինգ լիտրանոց տարայով բենզինը լցնել վառարանի մեջ. Փաշինյան (Hovsepyan, Q. Beş litrlik qabla sobaya benzin tökməyə cəhd edilib. Paşinyan) : [Էլեկտրոնային ռեսուրս]/ Hetq.am, – Հունվար 19, 2023. URL: https://hetq.am/hy/article/152260

22. Ինքնասպանություններ, սպանություններ. ըստ իրավապաշտպանի՝ բանակում մահվան դեպքերի նվազեցման համար պետք է լուրջ հայեցակարգ մշակվի (İntiharlar, qətllər. Hüquq müdafiəçisinin fikrincə, orduda ölüm hallarının azaldılması üçün ciddi konsepsiya hazırlanmalıdır) : [Էլեկտրոնային ռեսուրս]/ «Հելսինկյան քաղաքացիական ասամբլեայի Վանաձորի գրասենյակ», Դեկտեմբեր 5, 2019 URL: https://hcav.am/medialab-5-12-19/

23. Intelligence Online-ը՝ Հայաստանի և Ֆրանսիայի միջև ռազմական համագործակցության ներուժի մասին (Intelligence Online Ermənistan və Fransa arasında hərbi əməkdaşlığın potensialı haqqında):[Էլեկտրոնային ռեսուրս] / Araratnews.am, – Ապրիլ 28, 2023. URL: https://www.araratnews.am/show/81446

24. Ժամկետային զինծառայողների թիվը 9 տարվա ընթացքում պակասել է 44 տոկոսով՝ 44 հազարից դառնալով 24 հազար. Հայկ Սարգսյան (9 ildə

çağırışçıların sayı 44 faiz azalaraq 44 mindən 24 minə düşüb. Hayk Sarqsyan) : [Էլեկտրոնային ռեսուրս]/ "İnfoport.am" լրատվական կայք, նոյեմբեր 14, 2023 URL:https://infoport.am/am/news/defense/zhamketayin-zintsarayoghneri-tivy-9-tarva-yntacqum-pakasel-e-44-tokosov-44-hazaric-darnalov-24-hazar-hayk-sargsyan

25. Ռազմական ծախսեր և տնտեսություն (Hərbi xərclər və iqtisadiyyat): [Էլեկտրոնային ռեսուրս] / – "Evnreport.com", – Մարտ 14, 2021. URL: https://evnreport.com/arm/politics-arm/military-expenditures-and-the-economy-behind-the-war-of-weapons-2/

26. Սպաների և ոչ միայն սպաների պակաս. փորձագետն ասել է՝ ինչու են բանակում շատ մահվան դեպքերը (Zabit çatışmazlığı və digər çatışmazlıqlar var. Ekspert orduda ölümlərin niyə çox olduğunu bildirib) : [Էլեկտրոնային ռեսուրս] / Armeniasputnik, Օգոստոս 28, 2023 URL: https://armeniasputnik.am/20230828/spaneri-ev-voch-miajn-spaneri-pakas-pvordzagetn-asel-e-inchu-en-banakum-shat-mahvan-depqery-65005541.html

27. Ո՞ւր են մեր երեխեքը, բերե՛ք. վարչապետը դեպքից 2 ժամ հետո գործը ծածկեց. հրդեհից զոհված զինվորների ծնողները ճանապարհ են փակել (Uşaqlarımız haradadır? Onları gətirin. Baş nazir hadisədən 2 saat sonra işi ört-basdır etdi. Yanğında həyatını itirən əsgərlərin valideynləri yolu bağladı) [Էլեկտրոնային ռեսուրս]/ "168.am", Ապրիլ 21, 2023 URL: https://168.am/2023/04/21/1863319.html

28. Որտեղ են մնում զինվորները պատերազմից հետո. սա՞ է պետության վերաբերմունքը բանակի նկատմամբ (Müharibədən sonra əsgərlər harda qalırlar? Dövlətin orduya münasibəti budurmu?) [Էլեկտրոնային ռեսուրս]/ "PastinfoTv" լրատվական ալիք, 2020 URL: https://www.youtube.com/watch?v=iEr7-RB4VZM&t=21s

29. Ողբերգական հրդեհի հետևանքով զոհված զինծառայողների ծնողների բողոքի ակցիան (Faciəli yanğın nəticəsində həlak olan hərbçilərin valideynlərinin etiraz aksiyası) [Էլեկտրոնային ռեսուրս]/ "Aplus1", Մարտ, 2023 URL: https://www.youtube.com/watch?v=CynRJycT5Ts

30. Ովքե՞ր են եղել Հայաստանի ու Ադրբեջանի զենքի գլխավոր մատակարարները 2011-2020 թթ. (2011-2020-ci illərdə Ermənistan və Azərbaycanın əsas silah tədarükçüləri kimlər olub?) : [Էլեկտրոնային ռեսուրս]/ "hetq.am", Մայիս 14, 2021 URL:https://hetq.am/hy/article/130892

31. Երևանը հնդկական սպառազինության նոր խմբաքանակ է գնում. Eurasian Times (İrəvan Hindistan hərbi silahlarının yeni dəstəsini alır) : [Էլեկտրոնային ռեսուրս]/ "Ազատություն", Նոյեմբեր 8, 2023 URL: https://www.azatutyun.am/a/32676020.html

32. Կրոնական Ազատությունների Մասին Միջազգային Զեկույց 2016 Հայաստան (Dini Azadlıqlar üzrə Beynəlxalq Hesabat 2016 Ermənistan):

[Էլեկտրոնային ռեսուրս]/ Հայաստանում ԱՄՆ դեսպանատան պաշտոնական կայքը, Օգոստոս 15, 2017 https://am.usembassy.gov/hy/irfr2016/
33. Զինվորի ուտելիքը կերել եմ ու վատ եմ զգացել, ողջ սննդակարգը փոխվելու է: Նիկոլ Փաշինյան (Əsgər yeməyi yedim və özümü pis hiss elədim, əsgərlər üçün bütün qidalanma sistemi dəyişdiriləcək. Nikol Paşinyan) : [Էլեկտրոնային ռեսուրս]/ “Factor tv”, 2019 URL:https://www.youtube.com/watch?v=4eKjxEsZYwA